# Mərkəzi Seçki Komissiyasında bir sıra görüşlər keçirilib





Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov bələdiyyə seçkilərini müşahidə etmək məqsədilə Azərbaycanda səfərdə olan Moldova, Rumıniya, Belarus, Bolqarıstan, Qazaxıstan, Qırğız və Litva Mərkəzi Seçki Komissiyalarının nümayəndə heyətləri ilə görüşüb.

MSK-nın Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, xarici ölkələrin ali seçki qurumlarının nümayəndə heyətini salamlayan sədr Məzahir Pənahov görüşdən məmnunluğunu ifadə edib. MSK sədri seçki qurumları arasındakı qarşılıqlı faydalı əməkdaşlığın seçki praktikasının təkmilləşməsindəki rolundan danışıb. Bildirib ki, bu münasibətlər hər bir ölkədə seçki sisteminin inkişafında əvəzsiz əhəmiyyətə malikdir.

Nümayəndə heyətlərinin üzvləri MSK sədri Məzahir Pənahova səmimi qəbula görə təşəkkürlərini bildirib. MSK sədri seçkilərin yüksək səviyyədə hazırlanması, azad, ədalətli və şəffaf keçirilməsi istiqamətində atılmış addımlar və həyata keçirilmiş genişmiqyaslı layihələri qonaqların diqqətinə çatdırıb.



* * *

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov ölkəmizdə bələdiyyə seçkilərinin müşahidəsində iştirak edəcək Ukrayna Mərkəzi Seçki Komissiyasının sədri Oleq Didenko ilə görüşüb.

MSK Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, qurumun rəhbəri Məzahir Pənahov qonaqları salamlayaraq bələdiyyə seçkiləri ərəfəsindəki görüşdən məmnunluğunu bildirib və hər iki ölkənin ali seçki qurumları arasındakı əlaqələrdən söhbət açıb. Komissiya sədri rəhbərlik etdiyi qurumun çoxsaylı müxtəlif ölkələrin ali seçki qurumları ilə əlaqələrinə önəm verdiyini vurğulayıb.

Ukrayna Mərkəzi Seçki Komissiyasının sədri Oleq Didenko da öz növbəsində, həm dəvət, həm də səmimi qəbula görə təşəkkürünü ifadə edib. Bildirib ki, Ukrayna Mərkəzi Seçki Komissiyası yeni tərkibdə ilk səfərini məhz Azərbaycana edib.

Görüşdə, həmçinin ali seçki qurumları arasında əməkdaşlığın daha da dərinləşdirilməsi və qarşılıqlı maraq kəsb edən məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasında bələdiyyə seçkilərini müşahidə etmək üçün ölkəmizdə səfərdə olan Gürcüstan Mərkəzi Seçki Komissiyasının sədri Tamar Jvaniyanın rəhbərlik etdiyi nümayəndə heyəti Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahovla görüşüb.

MSK Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, gürcüstanlı həmkarı Tamar Jvaniyanı və rəhbərlik etdiyi nümayəndə heyətini salamlayan MSK sədri Məzahir Pənahov əlaqələri genişlənməkdə olan iki ölkənin ali seçki qurumları arasındakı sıx əməkdaşlıqdan məmnunluğunu bildirib. Sədr, eyni zamanda, vurğulayıb ki, qurumlararası münasibətlər və qarşılıqlı təcrübə mübadiləsi seçki praktikasının və seçki sisteminin inkişafında mühüm rol oynayır.

Seçkilərin müşahidəsi üçün dəvətə və MSK-dakı səmimi qəbula görə təşəkkürünü bildirən Gürcüstan Mərkəzi Seçki Komissiyasının sədri T.Jvaniya ölkəmizdə və Mərkəzi Seçki Komissiyasında olmaqdan şad olduğunu bildirib.

Görüşdə qurumlararası əməkdaşlığın daha da inkişaf etdirilməsinin perspektivləri və qarşılıqlı maraq kəsb edən məsələlərlə bağlı fikir mübadiləsi də aparılıb.

Azərbaycan.- 2019.- 24 dekabr.- S.15.